# *Maksim ŞEVÇENKO:* "Vardanyan barəsində çıxarılan məhkəmə hökmü münaqişə tərəfdarlarına verilən siqnaldır"

**Rusiyalı jurnalist və ictimai xadim Maksim Şevçenko Ruben Vardanyan barəsində Bakıda çıxarılan hökmü şərh edərək bildirib ki, bu, onun siyasi hərəkətlərinin məntiqi nəticəsidir.**

AZƏRTAC xəbər verir ki, Şevçenko "Vestnik Kavkaza" proqramının efirindəki çıxışında Ermənistanın Dilican şəhərində anadan olan və Qarabağla birbaşa əlaqəsi olmayan Vardanyanın uzun illərdir münaqişənin həllinə və region xalqları arasında etimadı bərpa etməyə yönəlmiş proseslərdən kənarda qaldığını qeyd edib. "O, heç vaxt öz imkanlarından ədaləti bərpa etmək, insanlara köməklik göstərmək və ya ermənilər ilə azərbaycanlılar arasında dinc münasibətlər qurmaq üçün is-



tifadə etməyib", - deyə jurnalist bildirib.

Şevçenkonun sözlərinə görə, keçmiş iş adamı Qarabağa eskalasiya dövründə gəlib və sərt siyasi mövqe tutub, yəni faktiki olaraq qarşıdurma xəttini dəstəkləyib. O, həmçinin bildirib ki, Vardanyan özünün beynəlxalq statusuna və siyasi təsirinə güvənir, bunun onun toxunulmazlığını təmin edəcəyinə inanırdı. Ekspert qeyd edib: "Vardanyanın düşüncəsinə görə, milyarder və oliqarx statusu o deməkdir ki, ona heç kim toxunmayacaq, amma bunun belə olmadığı məlum oldu".

Şevçenkonun sözlərinə görə, Vardanyanın Qarabağ hadisələrində iştirakı daxili siyasi ambisiyalarla daha çox bağlıdır. "Bu, onun üçün Ermənistana milli qəhrəman kimi qayıtmaq və hakimiyyət uğrunda mübarizə aparmaq istiqamətində atılan bir addım idi", - deyə jurnalist bildirib.

Məhkəmə qərarını şərh edən jurnalist çıxarılan hökmün "münaqişənin dinc yolla həllindən daha çox, onun davam etməsinə səy göstərənlər üçün bir siqnal" olduğunu qeyd edib. O, həmçinin əlavə edib ki, regionda davamlı sülh yalnız eskalasiya və revanşizm siyasətindən imtina etməklə mümkündür.

Azərbaycan. - 2026.- 19 fevral (№ 32).- S.7.